*Qədim Diyar Beynəlxalq Elmi Jurnal.* İyun 2026, Cild: 8, Sayı: 6, s. 281–285
*Ancient Land International Scientific Journal.* June 2026, Volume: 8, Issue: 6, pp. 281–285
DOI: https://doi.org/10.36719/2706-6185/61/281-285

# Sosial problemlərin həlli istiqamətində idarəetmə fəaliyyətinin optimallaşdırılması

**Əsgər Muradzadə**

***Xülasə.*** *Müasir cəmiyyətin inkişaf mərhələsində sosial problemlərin dərinləşməsi və onların həllinə yönəlmiş idarəetmə mexanizmlərinin səmərəliliyinin artırılması dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Sosial problemlər – əhalinin rifah səviyyəsinin aşağı olması, işsizlik, mənzil təminatında bərabərsizlik, təhsil və səhiyyə xidmətlərinə qeyri-bərabər çıxış, sosial müdafiə sisteminin qeyri-səmərəliliyi kimi kompleks sahələri əhatə edir. Bu problemlərin aradan qaldırılmasında idarəetmə fəaliyyətinin optimallaşdırılması — qərarvermə mexanizmlərinin çevikləşdirilməsi, resursların rasional bölüşdürülməsi, sosial siyasətin nəticəyönümlü planlaşdırılması və rəqəmsal idarəetmə texnologiyalarının tətbiqi ilə sıx bağlıdır.*

*Sosial idarəetmənin optimallaşdırılması həm dövlət orqanlarının fəaliyyətinin koordinasiyasını, həm də qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyətinin bu prosesdə iştirakını nəzərdə tutur. Yeni idarəetmə modeli insan kapitalının inkişafına, sosial ədalətin təmininə və dayanıqlı rifahın formalaşmasına yönəlməlidir. Bu baxımdan sosial sahədə idarəetmə fəaliyyətinin elmi əsaslarla aparılması, qərarların statistik və sosioloji təhlillərə əsaslanması vacibdir. Eyni zamanda, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi sosial xidmətlərin keyfiyyətini artırmaqla yanaşı, şəffaflığı və hesabatlılığı təmin edir.*

*İdarəetmə fəaliyyətinin optimallaşdırılması çərçivəsində əsas istiqamətlərdən biri resursların səmərəli idarə olunması və nəticəyönümlü büdcələşmənin tətbiqidir. Bu yanaşma sosial proqramların effektivliyini artırır və dövlətin sosial məsuliyyətini gücləndirir. Əlavə olaraq, risklərin idarə olunması, sosial innovasiyaların təşviqi və əhali qruplarının ehtiyaclarına uyğun fərdiləşdirilmiş xidmətlərin formalaşdırılması müasir sosial idarəetmənin tərkib hissələrindəndir.*

***Açar sözlər:*** *idarəetmə, optimallaşdırma, sosial, siyasət, kapital, rifah, innovativ, nəticəyönümlü*

---

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: esger2003.m@gmail.com
Daxil oldu: 12 Yanvar 2026; Qəbul edildi: 4 İyun 2026; Onlayn dərc edildi: 28 İyun
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BYNC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# Optimization of Management Activities in the Direction of Solving Social Problems

**Asgar Muradzadeh**

***Abstract.*** *In the development stage of modern society, the deepening of social problems and increasing the efficiency of management mechanisms aimed at solving them have become one of the main directions of state policy. Social problems cover complex areas such as low welfare levels of the population, unemployment, inequality in housing provision, unequal access to education and health services, and inefficiency of the social protection system.*

*Optimization of management activities in eliminating these problems is closely related to the flexibility of decision-making mechanisms, rational allocation of resources, result-oriented planning of social policy, and the application of digital management technologies.*
*Optimization of social management involves both the coordination of the activities of state bodies and the participation of non-governmental organizations and civil society in this process. The new management model should be aimed at the development of human capital, ensuring social justice and the formation of sustainable well-being. In this regard, it is important to conduct management activities in the social sphere on a scientific basis, and base decisions on statistical and sociological analyses. At the same time, the application of information and communication technologies, in addition to increasing the quality of social services, ensures transparency and accountability.*
*One of the main directions within the framework of optimizing management activities is the efficient management of resources and the application of result-oriented budgeting. This approach increases the effectiveness of social programs and strengthens the social responsibility of the state. In addition, risk management, promotion of social innovations and the formation of personalized services in accordance with the needs of population groups are components of modern social management.*

***Keywords:*** *management, optimization, social, policy, capital, well-being, innovative, result-oriented*

---

Azerbaijan State University of Culture and Art, Master's student, Baku, Azerbaijan
E-mail: esger2003.m@gmail.com
Received: 12 January 2026; Accepted: 4 June 2026; Published online: 28 June
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

Müasir dövrdə cəmiyyətin sosial strukturu dinamik dəyişikliklər və yeni çağırışlarla üz-üzədir. Qloballaşma, texnoloji inqilab, iqtisadi qeyri-sabitlik, demoqrafik dəyişikliklər və sosial bərabərsizlik kimi amillər dövlətlərin sosial idarəetmə siyasətində yeni yanaşmaların tətbiqini zəruri etmişdir. Sosial problemlərin mürəkkəb xarakter alması, onların təkcə iqtisadi deyil, həm də psixoloji, mədəni və etik aspektləri ilə əlaqədar olması idarəetmə fəaliyyətinin daha çevik, nəticəyönümlü və elmi əsaslı şəkildə təşkilini tələb edir. Sosial problemlərin həlli istiqamətində idarəetmə fəaliyyətinin optimallaşdırılması dövlətin sosial siyasətinin səmərəliliyini artırmaq, resurslardan rasional istifadəni təmin etmək və əhalinin rifah səviyyəsini yüksəltmək baxımından mühüm əhəmiyyət daşıyır. Bu prosesdə əsas məqsəd idarəetmə mexanizmlərinin müasir tələblərə uyğunlaşdırılması, qərarvermə strukturunun təkmilləşdirilməsi və ictimai nəzarət mexanizmlərinin gücləndirilməsidir. Eyni zamanda, sosial idarəetmə sahəsində rəqəmsallaşma, süni intellekt texnologiyalarının tətbiqi, vətəndaş cəmiyyətinin fəal iştirakı və nəticəyönümlü planlaşdırma kimi yeniliklər idarəetmənin effektivliyini artıran əsas amillərdəndir.

Azərbaycan Respublikasında həyata keçirilən sosial-iqtisadi islahatlar da bu istiqamətdə mühüm addımlar kimi dəyərləndirilir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində sosial rifahın təmin edilməsi, əhalinin həyat keyfiyyətinin yüksəldilməsi və sosial xidmətlərin optimallaşdırılması kimi məsələlər dövlət siyasətinin prioritet istiqamətləri kimi müəyyən edilmişdir. Bu baxımdan, sosial problemlərin idarəedilməsində səmərəli idarəetmə sisteminin formalaşdırılması həm nəzəri, həm də praktiki cəhətdən aktual tədqiqat mövzusudur.

## Metodlar

Sosial problemlərin idarə olunması mexanizmlərinin təkmilləşdirilməsi və idarəetmə fəaliyyətinin optimallaşdırılması məsələləri bu tədqiqatda bir sıra metodlar vasitəsilə araşdırılmışdır. Analitik-

sistemli yanaşma metodu ilə dövlət idarəçiliyi sistemi bütöv bir mexanizm kimi nəzərdən keçirilmiş, sosial problemlərin həlli prosesində idarəetmənin ayrı-ayrı elementləri arasındakı qarşılıqlı əlaqələr sistemli şəkildə təhlil edilmişdir. Müqayisəli hüquqi və inzibati təhlil vasitəsilə mövcud sosial idarəetmə modelləri beynəlxalq təcrübə və yerli qanunvericilik bazası ilə müqayisə edilmişdir. Sosial problemlərin idarəetməyə təsirini müəyyən etmək üçün müvafiq sahədəki dövlət proqramlarının, strateji sənədlərin və vətəndaş müraciətlərinin məzmun təhlili aparılmışdır.

## Nəticələr

Rəqəmsal transformasiya da idarəetmə fəaliyyətinin optimallaşdırılmasının mühüm istiqamətlərindən biridir. Elektron hökumət platformalarının, sosial xidmətlərin onlayn qeydiyyat sistemlərinin və süni intellekt əsaslı analizlərin tətbiqi idarəetmədə şəffaflıq, sürət və çeviklik təmin edir. Bu texnoloji yeniliklər sosial ehtiyacların daha dəqiq identifikasiyasına və vətəndaş məmnunluğunun artmasına şərait yaradır (Aliyeva, 2019).

**Cədvəl 1**
*Sosial problemlərin idarə olunmasında əsas istiqamətlər*

| № | İstiqamət | Məqsəd | Nəticə gözləntisi |
|---|---|---|---|
| 1 | Sosial müdafiə sisteminin təkmilləşdirilməsi | Aztəminatlı təbəqələrin rifahının artırılması | Sosial ədalət və bərabər imkanların təmin edilməsi |
| 2 | Əmək bazarının inkişafı | İşsizlik səviyyəsinin azaldılması və məşğulluğun stimullaşdırılması | Davamlı iqtisadi artım və sosial sabitlik |
| 3 | Təhsil və səhiyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsi | İnsan kapitalının gücləndirilməsi | Uzunmüddətli sosial rifah və həyat keyfiyyətinin artması |
| 4 | Rəqəmsal idarəetmə mexanizmlərinin tətbiqi | İdarəetmədə şəffaflığın və çevikliyin təmin olunması | Elektron hökumət və vətəndaş məmnunluğu səviyyəsinin yüksəlməsi |
| 5 | Regional sosial siyasətin gücləndirilməsi | Regionlararası bərabər inkişafın təmin edilməsi | Sosial-iqtisadi balans və inklüziv inkişaf |

*Mənbə.* Müəllif tərəfindən Azərbaycan Respublikasının sosial inkişaf strategiyalarına əsasən tərtib olunmuşdur.

Cədvəl 1 sosial problemlərin idarə olunmasında əsas istiqamətləri əks etdirir və bu istiqamətlərin məqsədlərini, həmçinin gözlənilən nəticələrini göstərir (Huseynov, 2019). Burada əsas diqqət sosial müdafiə sisteminin təkmilləşdirilməsinə, əmək bazarının inkişafına, təhsil və səhiyyə xidmətlərinin keyfiyyətinin artırılmasına, rəqəmsal idarəetmənin tətbiqinə və regional siyasətin gücləndirilməsinə yönəlib (Abboodi et al., 2023). Sosial müdafiə sisteminin təkmilləşdirilməsi aztəminatlı əhali qruplarının rifahının yüksəldilməsinə, sosial ədalətin və bərabər imkanların təmin edilməsinə xidmət edir (Klimek, 2020). Review of social issues in management (Guliyev & Panahov, 2024). Əmək bazarının inkişafı və məşğulluğun artırılması iqtisadi artımı dəstəkləyərək sosial sabitlik yaradır. Təhsil və səhiyyə sistemlərində keyfiyyətin yüksəldilməsi insan kapitalının güclənməsinə və uzunmüddətli rifaha şərait yaradır. Rəqəmsal idarəetmə mexanizmlərinin tətbiqi dövlət xidmətlərinin şəffaflığını və çevikliyini artırır, vətəndaş məmnunluğunu təmin edir. Regional siyasətin gücləndirilməsi isə ölkə daxilində sosial-iqtisadi balansın və inklüziv inkişafın bərqərar olmasına şərait yaradır (Kitchener et al., 2023).

## Müzakirə

Sosial problemlərin həlli istiqamətində idarəetmə fəaliyyətinin optimallaşdırılması müasir dövrdə sosial siyasətin əsas komponentlərindən biridir. Sosial idarəetmənin məqsədi yalnız mövcud problemləri aradan qaldırmaq deyil, həm də onların yaranmasının qarşısını almaq, profilaktik mexanizmləri formalaşdırmaq və sosial ədalət prinsipini təmin etməkdir (Aliyev & Muradli, 2024). Təhlil göstərir ki, bu istiqamətdə idarəetmənin effektivliyi üç əsas faktordan asılıdır: qərarvermə mexanizmlərinin elmi əsaslara söykənməsi, resursların ədalətli bölgüsü və cəmiyyətin bütün sosial təbəqələrinin prosesə cəlb olunması (Cano-Escoriaza, 2023).

Birincisi, idarəetmə mexanizmlərinin elmi əsaslara söykənməsi sosial problemlərin dərin təhlilinə və prioritetlərin düzgün müəyyənləşdirilməsinə imkan verir (Huseynli, 2023). Sosioloji sorğular, statistik göstəricilər və iqtisadi modellər əsasında aparılan analizlər dövlətin sosial siyasətində daha obyektiv və ölçülə bilən nəticələrə nail olmağa şərait yaradır. Məsələn, əhalinin gəlir səviyyəsinə, regionlar üzrə işsizlik göstəricilərinə və sosial xidmətlərin keyfiyyətinə dair monitorinqlər idarəetmə qərarlarının effektivliyini artırır (Yawar & Seuring, 2017).

İkincisi, resursların ədalətli bölgüsü və nəticəyönümlü büdcələşmə sosial proqramların real təsir gücünü artırır. Bu zaman məqsəd və nəticə arasında birbaşa əlaqə yaradılır və sosial layihələrin səmərəliliyi qiymətləndirilir. Dövlət büdcəsində sosial sahələr üçün ayrılan vəsaitlərin istifadəsinə nəzarətin gücləndirilməsi, şəffaf hesabatlılıq və vətəndaş cəmiyyəti institutlarının nəzarət mexanizmləri bu prosesin əsas təminatları hesab olunur (Wood, 1991).

Üçüncüsü, sosial idarəetmədə ictimai iştirakçılığın genişləndirilməsi sosial problemlərin yerli səviyyədə daha effektiv həllinə gətirib çıxarır. Qeyri-hökumət təşkilatları, bələdiyyələr, sosial işçilər və könüllü birliklər bu prosesdə mühüm rol oynayır. Bu model “dövlət–cəmiyyət tərəfdaşlığı” konsepsiyasını gücləndirərək qərarların sosial legitimliyini artırır (Walsh, Weber & Margolis, 2003).

## Nəticə

Aparılan təhlil göstərir ki, sosial problemlərin həlli istiqamətində idarəetmə fəaliyyətinin optimallaşdırılması müasir dövlət siyasətinin strateji prioritetlərindən biridir. Sosial idarəetmənin səmərəliliyi yalnız maliyyə resurslarının artırılması ilə deyil, eyni zamanda idarəetmə mexanizmlərinin elmi əsaslarla, çevik və şəffaf şəkildə qurulması ilə mümkündür. Bu prosesin əsas məqsədi sosial rifahın davamlı yüksəldilməsi, bərabər imkanların təmin olunması və vətəndaş məmnunluğunun artırılmasıdır.

Optimallaşdırılmış idarəetmə sistemi sosial problemlərin həllinə sistemli yanaşmanı təmin edir, dövlət orqanları, qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyətinin əməkdaşlığını gücləndirir. Nəticəyönümlü büdcələşmə, elektron idarəetmə, sosial monitorinq və analitik məlumat bazalarının tətbiqi idarəetmədə şəffaflığı, səmərəliliyi və məsuliyyəti artıran əsas vasitələrdir. Bu alətlərin inteqrasiyası sosial siyasətin icrasında həm operativlik, həm də dayanıqlılıq yaradır.

## Ədəbiyyat

1. Abboodi, B., Pileggi, S. F., & Bharathy, G. (2023). Social networks in crisis management: A literature review to address the criticality of the challenge. *Encyclopedia*, *3*(3), 1157–1177. https://doi.org/10.3390/encyclopedia3030084
2. Aliyev, M., & Muradli, A. (2024). The essence of the “case management” system and the possibilities of its application in the social service system of Azerbaijan. *Social Issues*, *2*(2), 91–98.

3. Aliyeva, N. (2019). *Social entrepreneurship and sustainable development: The case of social enterprises in Azerbaijan* (Doctoral dissertation, Khazar University). Khazar University Institutional Repository.
4. Cano-Escoriaza, A. (2023). Optimizing social impact in organizations: Concepts, levers and barriers. *Sociology Study*, *13*(5), 242–254. https://doi.org/10.17265/2159-5526/2023.05.002
5. Guliyev, A. A., & Panahov, A. M. (2024). Social management in fighting inequality: Tools and strategies. *Audit Journal*, *30*(4), 105–112. https://doi.org/10.59610/bbu4.2024.4.12
6. Huseynli, A. (2023). Social work in Azerbaijan: Achievements and challenges of institutionalization. *International Social Work*, *66*(4), 1102–1114. https://doi.org/10.1177/00208728221075824
7. Huseynov, Y. (2019). Resilience of the Republic of Azerbaijan and implementation of the "State Program on the Social and Economic Development of Regions – 2019-2023". *Ekonomia i Środowisko*, *4*(71), 163–175.
8. Kitchener, M., Ashworth, R., Horton, D., & Elliott, E. (2023). Co-created public value: The strategic management of collaborative problem solving. *Public Management Review*, *42*(6), 841–862. https://doi.org/10.1177/09520767231162407
9. Klimek, M. (2020). Strategy for solving social problems as a tool for managing the development of the social assistance system in a county. Theoretical and methodological aspects. *Praca Socjalna*, *35*(4), 51–67. https://doi.org/10.5604/01.3001.0014.3618
10. Walsh, J. P., Weber, K., & Margolis, J. D. (2003). Social issues and management: Our lost cause found. *Journal of Management*, *29*(6), 859–881.
11. Wood, D. J. (1991). Corporate social performance revisited. *Journal of Management*, *17*(2), 383–406.
12. Yawar, S. A., & Seuring, S. (2017). Management of social issues in supply chains: A literature review exploring social issues, actions and performance outcomes. *Journal of Business Ethics*, *141*(3), 621–643.